

Ramazan Xutra

## HANSINDAN DEYİM

Çoxdur bizim yerin zövqü-səfası,
Hansından söz açım, hansından deyim?
Yaxından, uzaqdan gələr sədası,
Çəmənin, çiçəyin nazından deyim?

Bu dilbər məkana cənnət dedilər,
Təbiət adına afət dedilər,
Qızıl payızına nemət dedilər,
Mən isə al-əlvan yazından deyim.

Qayaya kök atan qoşa qovaqdan,
Daşlardan süzülən zümrüd bulaqdan,
Dağların qoynunda yaşıl yaylaqdan,
Zirvəsində qarlı qışından deyim.

Bu gözəl diyara zinətdir insan
Avarla azəri bir ürək, bir can.
Söz açım mərdindən, qəhrəmanından,
Hünərvər oğlundan, qızından deyim.

Hər evin qapısı qonaq-qaralı,
Analar, gəlinlər əli sayalı,
Dərmandı süfrənin qaymağı, balı,
Sülhülü dadından, duzundan deyim.

Ramazan vurğundur gözəl hüsnünə,
Ulu keçmişinə, hər xoş gününə.
Min hava üstündə köklənib yenə,
Sinəmin sözündən, sazından deyim.

## İSTİNAD NÖQTƏSİ

*Mənə dayaq nöqtəsini verin yeri*
*məhvərindən oynadım.*
*Arximed.*

Sıfır ədədi var saylar içində,
Ümumən deyirik: heçdir dəyəri.
Fəqət ədədlərin düzülüşündə
Hesab nöqtəsidir, mərkəzdir yeri.

Sıfır boşluq deyil, ya da "heç" deyil,
Hər cür başlanğıca odur istinad.
Ədədin sağına qoyularsa, bil,
O ədəd qiymətə minəcək on qat.

Sıfır nisbətlərin bərabərliyi,
Sıfır miqdarların tarazlığıdır,
Sıfırdan başlayır ömür dediyin,
Hər işin əvvəli sıfra bağlıdır.

Yol başlar iki əks qütbə sıfırdan -
Biri müsbət yoldu, biri mənfi yol.
Mənfi itirəndi, müsbət qazanan,
Qazana-qazana yaşayandan ol.

## QURBAN OLUM

Ana yurdum, oymaq-oymaq
Ellərinə qurban olum.
Qardaş-deyən millətlərin
Dillərinə qurban olum.

Söz açıram həvəslə mən
Yurdumdakı yüksəlişdən.
Bir-birindən gözəl gələn
İllərinə qurban olum.

Arzuları yel qanadlı
Oğlun-qızın kama çatdı.
Anaların çörək dadlı
Əllərinə qurban olum.

Tər tökənə var yetirən,
İldə iki bar yetirən,
Çiçəklərdən xalı hörən
Çöllərinə qurban olum.

Ana yurdum, özün ulu,
Günün aydın, gecən nurlu.
Üzə gələn hər uğurlu
Səhərinə qurban olum.

## MƏNDƏDİR

Bir ömürlük ibrət yolu keçmişəm,
Yazılmamış salnaməsi məndədir.
Həyat elmi dərinmiş hər elmdən,
Təməl daşı, əlifbası məndədir.

Qərinələr, illər yola salmışam,
Yerin-göyün nəğməkarı olmuşam.
Havasını ürəyimdə çalmışam,
Zəmanənin hər avazı məndədir.

Güc məndədir, sülh məndədir, hərb məndə,
Sevgi məndə, ataş məndə, təb məndə,
Həyəcanlı, istiqanlı qəlb məndə,
Həyat eşqi, ehtirası məndədir.

Yanğı nədir, qovrulandan xəbər al,
Yana-yana köz olandan xəbər al,
Külə dönüb sovrulandan xəbər al,
Bir sevdanın yüz bəlası məndədir.

Şairliyim, bilməm mənə nə verdi -
Qəlb evimi qəmxanaya döndərdi.
Öz dərdini dərd edənin nə dərdi?
Millətimin cövr-cəfası məndədir.

Gəlişi bir aləmdi bu dünyanın,
Gedişi qəm-aləmdi bu dünyanın,
Nəyi vardı ələndi bu dünyanın,
Olan-qalan xatirəsi məndədir.

## NƏ DEYİRSƏN

Dönüb dəli sel olaram,
Gözlərində durularam,
Birdən sənə vurularam,
Sözün nədi, nə deyirsən?

Sənə şirin dilək desəm,
Qaya üstdə çiçək desəm,
Gözəl nədi, mələk desəm,
Sözün nədi, nə deyirsən?

İki qəlbi qoşa bilsəm,
Qəm əlindən qaça bilsəm,
Ürəyimi aça bilsəm,
Sözün nədi, nə deyirsən?

Sizə gələn yolun olsam,
Qulluğunda qulun olsam,
Sağın olsam, solun olsam,
Sözün nədi, nə deyirsən?

Əlim gəzə gur telinə
Kəmər çəkə qol belinə,
Adım gələ bal dilinə,
Sözün nədi, nə deyirsən?

Hər sınaqdan keçib getsək,
Bu eşqə and içib getsək,
Bir nağıla köçüb getsək,
Sözün nədi, nə deyirsən?

## DEMƏYİN MƏHƏBBƏT YALAN SÖHBƏTDİR

Dolanır dünyanın başında sevda,
Günəşin, hilalın qaşında sevda;
Yaşadır məni bu yaşımda sevda,
Deməyin məhəbbət yalan söhbətdir.

Hansı qəlb sızlamaz sevda gələndə,
Könlünü verdiyin üzə güləndə.
Hər ümid ölməzmi sevgi öləndə?
Deməyin məhəbbət yalan söhbətdir.

Eşq ilə açılar səhərin gözü,
Eşqdən güc alar şairin sözü,
Nə şirin əzabdır yanmağın özü,
Deməyin məhəbbət yalan söhbətdir.

Vüsala yetdikcə can bir sevənlər
Bu müqəddəs eşqə yer-göy baş əyər,
Vallah sevənlərin qəlbinə dəyər,
Deməyin məhəbbət yalan söhbətdir.

## SAĞ DA SAĞ DEYİL

Yanıram havayı ötən çağlara,
Demə, məhəbbətsiz çağ da çağ deyil.
Saf eşqin oduna yanmırsa ürək,
Duyğusu yoxdursa sağ da sağ deyil.

Bağın da bəhrəsi şəkər-qənd ola,
Bülbülü oxuya, gülə bənd ola,
Gözəllər seyr edə, dilə bənd ola,
Bağbanı fərsizsə bağ da bağ deyil.

Zirvəsində qartal qanad çalmırsa,
Qayasında maral dırnaq salmırsa,
Boranda, çovğunda məğrur qalmırsa
Qoynunda gəzdiyim dağ da dağ deyil.

## DAĞLARA GÜN DÜŞƏNDƏ

Oyandı al şəfəqlər,
Yandı-yandı üfüqlər.
Zirvələri zərdi-zər
Dağlara gün düşəndə.

Dərələr mürgülüdü,
Ağ buludlar tülüdü.
Ətəyi çən bürüdü
Dağlara gün düşəndə.

Yal-yamaclar bəzəndi,
Qayalar güzgüləndi,
Quzeylər kölgələndi
Dağlara gün düşəndə.

Qartal çaldı qanadı,
Qayaları caladı;
Meh çiçəyi yaladı
Dağlara gün düşəndə.

Qızlar endi bulağa,
Yox - dedim qocalığa,
Ürəyim döndü dağa
Dağlara gün düşəndə.

## YA MƏNİ

Ey dünya, ixtiyar sahibi sənsən,
Demirəm, ya, məni taxtına mindir.
Yer-göy arasında səməndərəm mən,
Ya göstər yerimi, ya məni endir.

Mən ki keçirmədim ömrümü hədər,
Fəqət səndən cəfa gördüm nə qədər.
Kişini ağlatmaz hər qüssə, kədər,
Ya günahımı de, ya məni güldür.

İnsana həmdəməm, Allaha bəndə,
Şeir də yazıram yeri düşəndə.
Sonsuz həyat eşqi görərsən məndə,
Ya qəlbimi dinlə, ya məni dindir.

Ramazanam, min bir arzumla varam,
Bir odlu ürəyəm, daim yanaram,
Sevilib yaşaram, sevib yaşaram,
Ya dola başına, ya məni öldür.

## XƏBƏR AL MƏNİ

Zamanla bəhsləşdim, zamanı ötdüm,
Yel atlı illərdən xəbər al məni.
İnamı yaşatdım sabahım üçün,
Alagöz səhərdən xəbər al məni.

Azad fikirlərim arzuyla dolu,
Xəyalım göylərin kəhkəşan yolu.
Bəxtimin ulduzu mənə yar olur,
O nurlu ülkərdən xəbər al məni.

Mən ki həyatımın gur çağındayam,
Əbədi məhəbbət dərgahındayam,
Ömür bələdçimin pənahındayam,
O dilli dilbərdən xəbər al məni.

Bir kövrək duyğuyam, bahara həmdəm,
Gözəllik qəlbimə, ruhuma məlhəm.
"Elə yar-yar" - deyə bir gülə bəndəm,
"Sona bülbüllər"dən xəbər al məni.

Elin süfrəsində öz əməyim var,
Halalca kəsilən duz-çörəyim var;
Düz əhdim, düz sözüm, düz ürəyim var,
Duyan könüllərdən xəbər al məni.

Hələ çox sərhədlər keçəcəyəm mən,
Ürəklərə yollar çəkəcəyəm mən.
Ruhuna düşürsə, hər təzə sözdən,
Hər yeni əsərdən xəbər al məni.

